DOI: 10.36719/2663-4619/62/119-123

**Nubar Elsevər qızı Bəşirli**
AMEA Tarix İnstitutu
nubar.besirli@mail.ru

# NOBEL QARDAŞLARI VƏ ONLARIN BAKI NEFTİ İLƏ İLK TANIŞLIĞI

***Açar sözləri:*** *"Nobel qardaşları", Lüdviq Nobel, Robert Nobel, Alfred Nobel, Bakı nefti, xarici kapital, iltizam sistemi, Qara şəhər*

## Nobel brothers and their first acquaintance with Baku oil

## Summary

The first foreign capital in Baku was laid by the Nobel brothers from a family of famous Swedish engineers and inventors. The Nobel brothers brought walnuts from Germany to make rifles, which cost them dearly. Robert Nobel, who was sent to Lankaran by his younger brother Ludwig to make it cheaper, goes to Baku. A young businessman interested in the development of the oil industry comes to the conclusion that he can quickly make a fortune from oil. Realizing that oil is the most profitable sector in Baku, Robert Nobel founded the Nobel Brothers and opened an oil refinery in the Black City. Thus, the Nobel laureates soon became one of the giant oil magnates. In the middle of 1876, Ludwig Nobel, a talented engineer who was well acquainted with the modern organization of industrial production, moved to Baku. Thus, a new stage is entered in the future development of Baku oil.

***Key words:*** *"Nobel brothers", Ludwig Nobel, Robert Nobel, Alfred Nobel, Baku oil, foreign capital, commitment system, Nargin Island, Black City*

## Giriş

Günümüzə qədər dünyanın bir çox ölkəsində Nobel qardaşları haqqda saysız məqalələr, kitablar yazılıb. Onların bir çox sahədəki kəşfləri, ixtiraları, sahibkarlıq fəaliyyətləri dəfələrlə araşdırılıb və elmi tədqiqata cəlb olunub.

Azərbaycanda da bu sahədə müəyyən araşdırmalar aparılıb. Etiraf edək ki, sovet dövründə Nobellərin fəaliyyəti ilə bağlı qərəzli yanaşmlar olsa da, dövlət müstəqilliyimizin bərpasından sonra onların ölkəmizdəki fəaliyyətinə obyektiv qiymət verilməsi üçün imkan yaranıb. Məhz bu məqsədlə məqalədə Nobellərin Azərbaycandakı fəaliyyəti, o cümlədən Bakı neftinin inkişafındakı rolları obyektiv şəkildə öz əksini tapmışdır.

Ümumiyyətlə mövzu araşdırıldığı zaman ilk olaraq belə bir sual meydana gəlir ki, nobellər Bakıya necə gəlib çıxıb? Onların məqsədi həqiqətənmi tüfəng qundağı üçün qoz ağacı almaq idi? Sözü gedən dövürdə bir çox iş adamları Bakıya gəldikləri halda bəs necə oldu ki Nobellər bu qədər şöhrət qazana bildi? Onların Azərbaycandakı fəaliyyətini digər sahibkarlardan fərqləndirın nə idi? Məqalədə mümkün olduğu qədər sualları cavablandırmaqla yanaşı, işin daha keyfiyyətli alınmasına tərəfimdən xüsusi diqqət göstərilib. Nobel qardaşlarının Bakıdakı fəaliyyətindən danışanda əlbəttə ki, Azərbaycan milli burjuaziyasının nümayəndələrinin fəaliyyətindən də yan keçmək olmaz. Bəs belə bir sual meydana gəlir. Hazı Zeynalabdin Tağıyev, Şəmsi Əsədullayev, Hacı Şıxəli Dadaşov, Musa Nağıyev, Murtuza Muxtarov kimi neft maqnatlarını nobellərlə birləşdirən nəsə olubmu? Beləliklə, nəhayyət ki, ilk dəfə Robert Nobel Bakıya gəlir...



**Şəkil. Nobellər**

Bakı neftinin işığı gündən-günə güclənir, hərarəti artırdı. Onun şölələri Abşerondan uzaqlara yayılırdı. Neftli sahələrin satılması geniş vüsət aldı. Hərracda pulu olan hər kəs iştirak edə bilərdi. İltizam sisteminin ləğvi də neft sənayesinin inkişafına güclü təkan verdi. Neft şirkətlərinin sayı günbəgün artır, xarici kapitalın fəaliyyət dairəsi genişlənirdi. Bakıda xarici kapitala əsaslanan ilk xarici şirkəti "Nobel qardaşları" yaratdı. Onlar o vaxta qədər nəinki Rusiyada, həmçinin Avropada məşhur idilər. Ailənin başçısı Emmanuel Nobel hələ 1843-cü ildə İsveçdən Rusiyaya gələrək, maşınqayırma zavodu açır və silah istehsalına başlayır. Krım müharibəsi ilə əlaqədar Rusiyanın silaha böyük ehtiyacını ödəyir. Nobellər istedadlı ixtiraçı, bacarıqlı maliyyəçi, işgüzar adamlar idilər. Krım müharibəsindən sonra Emmanuel Nobel iflas qarşısında qalır. Odur ki, oğlanları Alfred və Elmar ilə Peterburqdan vətənə qayıdır və kimya laboratoriyası yaradır. Lakin laboratoriyada baş verən dəhşətli partlayış Elmarın həyatına son qoyur. Alfred isə buna baxmayaraq öz tədqiqatlarını davam etdirir və öz dövrü üçün ən dağıdıcı maddə olan dinamiti kəşf edir. Qardaşları Lüdviq və Robert Peterburqda qalıb "Nobel qardaşları" şirkətini təsis edir, çoxsahəli fəaliyyətə başlayırlar. Bir müddət sonra onların həyatında yeni bir mərhələ-Bakı mərhələsi başlayır. Elə bir mərhələ ki, "Nobel qardaşları"nı dünyanın ən qüdrətli şirkətlərindən birinə çevirməklə yanaşı, neftlə bağlı ən müxtəlif sahələrdə misli görünməmiş ixtiraların yaranmasına səbəb oldu. Bütün bunlar isə 1870-ci ildə qardaşı Lüdviqin tapşırığı ilə Robert Nobelin Azərbaycana gəlməsindən sonra baş verdi ( İsrafiloğlu, 2002: 10-11).

1870-ci illərin əvvələrində Nobel qardaşlarından ən böyüyü Robert Nobel Bakıda kiçik emal zavodunu almaqla, lazımı avadanlıqlarla alqı-satqı əməliyyatlarını həyata keçirmək üçün düzgün məkan və düzgün zaman seçmiş oldu. Bu, böyük uğurun, düzgün intuisiyanın və dərin biliklərin nəticəsi idi. O zaman yerli şərait olduqca əlverişli idi. Burada biznes qurmaq üçün tələb olunan əsas amillərin mövcudluğu ilə yanaşı, təchizat və tələbata olan ehtiyacın artması da müşahidə olunurdu. Bu, Nobel qardaşlarının Azərbaycan və Bakıda göstərəcəkləri, sonradan isə 50 il davam edəcək əzmkarlığın başlanğıc nöqtəsi oldu. İndi həmin əzmkarlıq əyani şəkildə bu sərgidə nümayiş etdirilir. Nobel qardaşlarını Azərbaycana gətirən də məhz silah məsələsi oldu. Yüz minlərlə tüfəng qundağı üçün Almaniyadan başqa qiymətə gətirilən qoz ağacı Nobel qardaşlarına bir o qədər də sərfəli olmadığından, Sankt-Peterburq və İjevsk ətrafında isə qoz ağacı bitmədiyindən qardaşlar bunu imperiyanın müxtəlif bölgələrində axtarmağa başladılar. Mütəxəssislər qoz ağacının Qafqazda, xüsusən də Lənkəran meşələrində çox olmasını söylədikdən sonra Lüdviq Nobel 1873-cü ildə qardaşı Robert Nobeli Azərbaycana göndərdi. Lakin o, Lənkəranda qoz ağacı massivi tapa bilmədi və Nobel qardaşları tüfəng qundağı düzəltmək üçün qoz ağacını daha ucuz qiymətə başa gələn toz ağacı ilə əvəz etdilər. Buna baxmayaraq, Robert Nobelin Azərbaycana səfəri hədər getmədi. O, yolüstü Bakıda qaldı, Qaraşəhər və Ağşəhəri, neft mədənlərini gəzdi, maliyyə, sənaye və iqtisadi vəziyyəti öyrəndi, əsl gəlir mənbəyinin Bakıda olduğunu qabaqcadan çox düzgün qiymətləndirdi. Ümumiyyətlə, Nobellərin Bakı haqqında ilk təsəvvürləri XIX əsrin 60-cı illərində yaranmışdı.

O dövrdə ABŞ kerosini Avropada şöhrət qazandı ki, bu da qəzet və jurnallar vasitəsi ilə kimya və texnikaya aid xəbərləri daimi izləyən Nobellərin diqqətindən yayınmadı. Lüdviq qardaşı Robertə göndərdiyi 16 fevral 1864-cü il tarixli məktubda kerosin lampalarından söz açır və rus kapitalisti Kokorevin 1858-ci ildə Bakıda kerosin istehsal edən kiçik bir zavod açmasından bəhs edirdi: "Rusiyanın içərilərində Kokorevin Qafqaz şəhəri Bakıdan gətirdiyi mədən yağlarından istifadə olunur. Qiyməti hələ çox baha olsa da güman etməyə əsas var ki, bu yağlar yaxın gələcəkdə ABŞ yağları ilə rəqabət apara biləcək gücə malikdir. Bu ehtiyatlar ABŞda olduğundan heç də az deyil. Ümumiyyətlə, neft məsələsində çox parlaq gələcək var"... lakin onların heç biri güman etmirdi ki, bu "parlaq gələcəyin" əsas iştirakçıları məhz onlar olacaqlar. Robert Nobel 1873-cü ilin sonunda Sankt-Peterburqa qayıtdıqdan sonra Bakıda neftlə bağlı geniş biznes imkanlarının olduğunu qardaşı Lüdviq Nobelin nəzərinə çatdırdı və onu perspektiv cəhətdən tükənməz dövlətə sahib olmağın mümkünlüyü fikrinə inandıra bildi. Robert Nobel qardaşı Lüdviqdən 25 min rubl alaraq 1874-cü ildə Azərbaycana qayıtdı və 1875-1876-cı illərdə Bakı neft sənayesində sahibkarlıq fəaliyyəti ilə məşğul olmağa başladı. Lüdviq Nobel İsveçdəki qardaşı Alfredə yazdığı 31 oktyabr 1875-ci il tarixli məktubunda Robertin Bakıya edəcəyi səfərinə böyük ümidlə yanaşdığını bildirirdi: "Görək xammal və hasilat işlərini necə sahmana salacaq. Mən öz tərəfimdən məndən asılı olan hər şeyi etdim. Onun həyatının sonrakı uğurları və xoşbəxtliyi bundan asılıdır" (Hüseynova A, Abbasova N, Melikova A, 2009:25)

Onu da ayrıca qeyd etmək vacibdir ki, XIX yüzilliyin dördüncü rübündən etibarən Bakı neft sənayesinin kəskin sıçrayısına səbəb olan amillərdən biri 1872-ci ilə qədər Bakı neft sənayesində on illər boyu hökmranlıq etmiş iltizam sisteminin ləğvi idi. O dövrün mütərəqqi düşüncə sahibləri, o cümlədən böyük kimyaçı-alim Dmitri Mendeleyev neft sənayesini ləngidən, onun təbii və normal inkişafına əngəl törədən bu mürtəce sistemin əleyhinə çıxış edərək, çar hökumətini inandırmağa çalışırdılar ki, bu sistem nəinki iqtisadiyyatın bu vacib sahəsinin inkişafına mane olur, hətta şikəst edir. İltizam sisteminin aradan götürülməsi Bakı neft sənayesinin misli görülməmiş sıçrayısına səsbəb oldu. Elə bir sıçrayışa ki, kiçik bir

zaman kəsiyində Bakı neftini bir çox xarici neft şirkətlərinin ən ciddi və perspektivli rəqibinə çevrildi ( İsrafiloğlu, 2009:49).

Neftçıxarmada iltizam sistemi ləğv edilsə də, boş torpaq sahələrinin icarəyə götürülməsi ilə əlaqədar bəzi bürokratik qaydalar hələ qaldığından Robertin torpaq almaq arzusu reallaşmır. O, neft biznesindəki boşluqları və çatışmazlıqları araşdırır, yeni ideyalar üzərində düşünür, Amerika təcrübəsini öyrənir. Apardığı hesablamalar nəticəsində mədənlərədn neftin arabalarla daşınmasının baha başa gəldiyini müəyyənləşdirir. Amerikada bu məqsədlə boru kəmərlərindən istifadə olunmasını əsas götürərək, Bakıda da bu təcrübənin tətbiqinin mümkünlüyünü düşünür. Burla birlikdə Balaxanı mədənlərindən Qara şəhərə neft kəməri çəkmək planı hazırlayır.

Hökumətə bu mövzu ilə bağlı müraciət etmək imkanına sahib olmadığı üçün saray müşaviri, knyaz Bebutovla işbirliyi edir.1873-cü il dekabrın 7-də Bebutova verdiyi etibarnamədə açıqca yazır:

*“Neft mədənlərindən Bakıya neft çəkilməsi üçün hökumətə birbaşa müracət edə bilmədiyimizə görə xahiş edirik ki, bu məsələni hökumət qarşısında qaldırasınız”.*

Bebutov bu məsələ ilə bağlı Bakı qubernatoruna müraciət edir. Qubernator üç nəfər Bakı sakininin şəxsi hesaba Balaxanıdan neft kəməri çəkmək barədə xahişini Tiflisdə olarkən Qafqaz canişinə çatdırır, lakin müraciətdəki şərtlə razılaşmır (Həsənov, 2018:44)

Robert Bakıya gəldikdən sonra Xəzər dənizinin şərqində yerləşən Çələkən adasındakı mədənlərin işlənilməsi üçün lisenziya aldı. Robert Nobel 120-yə qədər neft emalı zavodunun fəaliyyət göstərdiyini, bununla belə neftin hələ də köhnə metodlarla hasil edildiyini biləndə texniki yeniliklər tətbiq etmək qərarına gəldi. O, “Tiflis cəmiyyəti”ndən Qaraşəhərdə 25 min rubla kiçik bir zavod aldı və onu yenidən qurdu. Neft emalı zavodu üçün avadanlıqlar hazırlamaq məqsədi ilə Bakıda mexaniki emalatxanası olan isveçrəli Martin Vestvala sifarişlər verdi. R. Nobel neft emalı zavoduna rəhbərliyi gənc kimyaçı mühəndislər Erland Teel və Avqust Avelinə həvalə etdi. Gərgin səylər nəticəni çox gözlətmədi. 1875-ci ilin payızında Robert Nobelin zavodu ilk məhsullarını istehsal etdi. Robert özü əla səviyyəli kimyaçı olduğu üçün onun neft məhsulları keyfiyyətinə görə nəinki yerli rəqibləri, hətta Rusiyaya ildə 40 min ton kerosin ixrac edən ABŞ məhsullarım da ötüb keçdi. Hasilat sürətlə genişləndi, Robert Nobel alman geoloqu Fillin köməyi ilə yeni neft mədənləri aşkara etdi. Sankt-Peterburqdan Lüdviq, Parisdən isə Alfred Nobellər Bakıdakı qardaşlarına maliyyə vəsaiti və məsləhətlər baxımından yardımlarını əsirgəmirdilər. Lakin, Peterburq qəzetləri Bakıdakı neft həyəcanından günlərlə, aylarla, bəzən isə illərlə davam edən nəhəng neft Rusiyası Hökuməti yerli istehsala diqqəti artırmaq üçün ABŞ-dan ixrac olunan neft məhsullarına aksiz vergisini artırdı. Belə bir vaxtda, Lüdviq Nobel də marağını boğa bilmədi və 17 yaşlı oğlu Emanuellə birgə Bakıya yollandı. Burada o, bir daha əmin oldu ki, tüfəng, top, dinamit və şairədən əldə olunan gəlirlərlə müqayisədə Robertin Bakıdakı neft müəssisəsinin əldə etdiyi qazanc qat-qat çoxdur. 1876-cı ilin sentyabr ayında yenidən Bakıya qayıdan Lüdviq qardaşı Alfredə yazdığı məktubunda “Bakı neftinin genişmiqyaslı daşınmasını həyata keçirmək planlarının olduğunu , inanılmaz gəlir əldə etməyin mümkünlüyünü bildirirdi. Bakıda o, Robertlə birgə ciddicəhdlə xüsusi kerosin zavodunun inşasını başa çatdırmağa çalışırdı. Bu məqsədlə 300 min dollar kapital qoyulsa da, bu məbləğ kifayət etmədi. Boru kəmərləri və böyük rezervuarlar lazım idi və buna görə də, qardaşlar dostları Satndartşeldi onun 150 min dollar sərmayəsi ilə birgə fəaliyyətə cəlb etdilər. Beləliklə, təkcə istehsal işlərinə 450 min dollar vəsait sərf olundu (Hüseynova A, Abbasova N, Məlikova A, 2009:22).

1876-cı ildə gənc mühəndis Alfred Turnquist ABŞ-a səyahət etdi. Dünya Sərgisində İsveç bölməsinin yaradılmasına kömək etdi. Sonra bir müddət maşınqayırma işində çalışdı. Oradan İsveçə gedərkən Parisdə qaldı, burada sərgidə Robert Nobellə daha sonra isə Alfredlə tanış oldu. Qardaşlar bacarıqlı mühəndisi bəyəndilər və dərhal onu öz xidmətlərinə götürdülər. Alfred əlaqələri sayəsində xidmətə girdi Marsilya rafineri və ona əmanət edildi "Mümkün qədər çox şey öyrənin." Qardaşlar indiyə qədər Bakıda yaratmaq niyyətində idilər eşitməmiş fasiləsiz emalı. Təəssüf ki, Marseldə borc alacaq bir şey yox idi. Yeni texnologiyalar ABŞ-da, Oil City-də cəmləşmişdi (İsmayılov, 2007: 83).

Xeyli müddət Lüdviq Robertin Bakıdakı fəaliyyətinin uğurlu olacağına şübhə ilə yanaşdı. O, neft biznesinin perspektivinə o qədər də inanmırdı. Lakin tez bir zamanda qardaşı Alfredin Parisdən göndərdiyi teleqram onun fikrini tamam dəyişdi. Avropanın digər paytaxtlarında olduğu kimi, Paris birjalarında da böyük bir qalmaqal hökm sürürdü. Bu qalmaqalın səbəbkarlarından biri də Bakı nefti idi. Parisin işgüzar dairələri və maliyyə elitası Bakı neftinə böyük maraq göstərirdi. Buna, təbii ki, təcrübəli biznesmen Alfred Nobel də biganə qala bilməzdi. Odur ki, qardaşı Lüdviqə təcili teleqram göndərdi: “...Parisin işgüzar dairələrində Bakı nefti haqqında söz-söhbət son dərəcə çoxalmışdır. Deyilənlərə görə Rotşild artıq öz adamlarını ora göndərib və çalışır ki, ən yaxşı sahələri ələ keçirsin. Tezliklə yola düşün və fəaliyyətə başlayın. İstənilən qədər vəsait verməyə hazıram. Bakının neft sənayesinin vəziyyəti ilə ətraflı tanışlıqdan sonra Lüdviq başa düşdü ki, əsl müvəffəqiyyət üçün, ilk növbədə, yeni texnika və texnologiyanín tətbiqinə

böyük ehtiyac var. Çox keçmədən əsas sima Lüdviq olmaqla Bakıda "Nobel qardaşları" neft şirkəti geniş fəaliyyətə başladı. Şirkətə həmçinin onun qardaşları Robert, Alfred və bir neçə başqa şəxs daxil idi. Şirkətin ilkin kapitalı üç milyon rubl idi. Bu, o dövrdə çox böyük məbləğ sayılırdı. Bir qədər sonra Sabunçuda şirkətin idarə binası inşa edildi. Yeni texnika və texnologiyanın tətbiqi səviyyəli mütəxəssislər istəyirdi. Odur ki, yüksək əmək haqqı verməklə istedadlı alimlər, mühəndislər, iqtisadçılar şirkətə cəlb edildilər. Böyük istehsalat və biznes ənənələrinə malik Nobel qardaşları illərdən bəri əldə etdikləri misilsiz təcrübəni, hətta Bakı şəraitində belə geniş miqyasda tətbiq etməyə başladılar. Bu, o vaxta qədər görünməmiş bir iş üsulu idi. Onun müsbət nəticələri tezliklə özünü neft sənayesinin ən müxtəlif sahələrində göstərdi. Şirkətin fəaliyyəti neft sənayesinin bütün sahələrini əhatə edirdi; neftin kəşfiyyatı, hasilatı, emalı, nəqli, həmçinin müasir texnika və texnologiyanın tətbiqi. Məsələnin belə kompleks şəkildə qoyuluşu "Nobel qardaşları"nı başqa şirkətlərdən əsaslı surətdə fərqləndirirdi. Şirkətin hədsiz uğurları da əsasən bununla bağlıdır. "Bakı neft sənayesinə nəzər" məqaləsində Lüdviq Nobel yazırdı: "Xam nefti nəql etmək çox baha başa gəlir. Çünki yerli sənayeçilər nefti arabalarla daşıyırlar. Belə ki, hətta qısa məsafəyə daşınan 20 pudluq bir çəlləyin hər puduna 2 qəpikdən 10 qəpiyə qədər pul vermək lazım gəlir. Bu, məhsulun özündən 10 dəfə bahadır". Bu mühüm problem Lüdviq Nobeli daim düşündürür, bir an da olsun rahatlıq vermirdi. İqtisadi səmərəni yüksəltmək üçün yeni ideyalar axtarır, daha mütərəqqi üsulları tətbiq etməyə can atırdı. Çünki yaxşı başa düşürdü ki, köhnə və ibtidai texnoloji əməliyyatlar, gündən-günə artan, genişlənən neft istehsalını təmin etmək iqtidarında deyil. Bu nəinki iqtisadi, həmçinin mənəvi əhəmiyyət kəsb edirdi. Bu həm də texniki tərəqqiyə doğru inamlı addım demək idi. Doğrudan da neft mədənlərdən arabalarla çəlləklərdə daşınırdı. Şübhəsiz ki, bu, Nobel qardaşlarını heç cür təmin etmirdi. Odur ki, tezliklə quyulardan neft emalı müəssisələrinə neft kəmərləri çəkildi. Sonra bu kəmər dəniz limanına qədər uzadıldı. Bu yenilik neft daşıyanların iğtişaşlarına səbəb oldu.

Minlərlə arabaçı, çəlləkçi, tuluqçu tətilə qoşuldu, neft kəmərlərinin sökülməsini tələb etdilər. Kəmərlərə qarşı terrora da əl atdılar. Bir neçə dəfə sındırdılar, nasos stansiyasını xarab etdilər. Lakin xeyri olmadı. Atlı polislər kəməri gecə-gündüz qoruyurdular. Səmərəni dərk edən başqa sahibkarlar da neft kəmərlərinə üstünlük verdilər. 6-7 ildən sonra neft əsasən kəmər vasitəsilə nəql edilməyə başladı. Neftin uzaq məsafələrə nəqli, xüsusilə də başqa ölkələrə ixracı hələ də ciddi problem olaraq qalırdı. Bu təkcə Bakının deyil, dünyanın neft şirkətlərinin həlli vacib olan mürəkkəb bir problemi idi. Bacarıqlı mühəndis, istedadlı ixtiraçı Lüdviq Nobel bu məsələnin də həllini tapdı. O, kanoe tipli qayığın modelini qardaşına göstərib deyir: "Bilirsən, yaxşí bir ideya ağlıma gəlib. Nefti daşımaq üçün buna bənzər gəmilər düzəltmək olar. 3 min ton su tutumu olan belə bir gəmi 9 min çəlləyi əvəz edir və 180 min rubl iqtisadi fayda verər. Cəmi iki və ya üç mövsüm ərzində onun xərcini ödəmək olar. Bundan başqa axí belə gəmilərin həcmini xeyli artírmaq da olar". Bu mütərəqqi ideyanı hamı bəyəndi. Və tezliklə onun reallaşdırılması gündəlikdə duran ən vacib məsələyə çevrildi. Nəhayət, 1877-ci ildə İsveçin gəmi tərsanəsində Lüdviq Nobelin layihəsinə əsasən hazırlanmış ilk tanker suya salındı. Gəmi "Zoroastr" ("Zərdüşt") adlandırıldı. O, 15 min pud neft daşımağa qadir idi. Onun ardınca. Bu mütərəqqi ideyanı hamı bəyəndi. Onun ardınca başqaları da inşa edildi. "Moisey", "Spinoza", "Darvin", "Məhəmməd". Bununla da tanker donanmasínín əsası qoyuldu.

Neftdaşıma gəmilərinin miqdarının ildən-ilə çoxalması Bakı limanında yükdaşıma əməliyyatlarının həcmini kəskin surətdə artırdı və o, qısa bir vaxtda dünyanın ən işgüzar limanlarından birinə çevrildi. Lakin belə bir donanmanı hərəkətə gətirmək üçün çoxlu kerosin tələb olunurdu. Kerosin isə qiymətli yanacaq idi. Buna görə Lüdviq Nobel mazutdan istifadə etməyi qərara aldı. O, Parisə, qardaşı Alfredə məktubunda xahiş edirdi ki, mazut barədə ona dəqiq məlumatlar göndərsin. Alfredin cavabı çox tez gəldi. O, yazırdı: "...Mazutun olduqca böyük gələcəyi var. Əgər sizdə onun qiyməti aşağıdırsa, yubanmadan rezervuarlar inşa edin və onları ağzına qədər mazutla doldurun. Beş-on ildən sonra mazut böyük gəlir gətirəcək". Bu məktub, mazutun bir yanacaq kimi tədqiqi və sınağı üçün güclü təkan verdi. Lüdviq Nobel bu sahədə bir sıra ixtiralar etdi və şəxsən özünün yaratdığı püskürmə qurğularını şirkətin öz gəmilərində sınaqdan keçirdi. Çox keçmədən şirkətin tankerləri yeni yanacaq növünə keçdilər. Şirkətin Bakıdan Volqa boyuna qədər yerləşən bazalarında toplanmış yüz minlərlə pud mazut, nəhayət, saysız-hesabsız alıcılarını tapdı (İsrafiloğlu, 2002: 20-21). XIX əsrin 70-ci illərində neft sənayesində fəaliyyət göstərən şirkətlər əsasən Rusiya sahibkarlarına məxsus idi. 1875-ci ildə neftçıxarma sahəsində qeydə alınmış 26 şirkət sırasında xarici, o cümlədən qərb kapitalını təmsil edən şirkət yox idi (Mehdiyev, 2009: 19).

1877-ci ilin yayında Robertin Balaxanıdan Qara şəhərə neft kəməri çəkmək üçün sifariş verdiyi "boru və maşınlar artıq Qlazqodan Bakıya doğru gətirir". O bu barədə Bakı quberniyası Dövlət Əmlakı İdarəsinə məlumat verərək müvafiq torpaq sahəsinin ayrılmasını sürətləndirməyi xahiş edir. Çünki texnikanın gəlməsinə qədər "torpaq işləri dərhal görülməli idi".

Nobellərin Bakıda ilk neft kəməri 1878-ci il mayın 20-də istifadəyə verilir və gündə 15 min pud xan neft ötürür. Bunun üçdə biri Nobellərin öz zavoduna, qalanı isə digər zavodlara nəql edilir.

Bununla da Nobellər Bakının neft sənayesində böyük bir inqilabi dəyişikliyin əsasını qoyurlar. Neftin kəmər vasitəsilə daşınmasının sımırısi dərhal görünür. Digər tərəfdən neft sənayeçiləri də boru xətti çəkmək niyyətinə düşürlər (Həsənov, 2018:46).

Həmin ildə Bakıda kiçik torpaq sahəsi və zavod alan İsveç mənşəli Nobel qardaşları yalnız 1879-cu ildə “Nobel qardaşları" səhmdar cəmiyyətini yaradaraq, neft sənayesində məqsədyönlü fəaliyyətə başladılar (Mehdiyev, 2009: 20).

## Nəticə

Nobel qardaşlarının Bakıdakı sahibkarlıq fəaliyyətini araşdıranda və təhlil edəndə ümumiyyətlə, belə bir qənaətə gəlmək olur ki, Nobellər məşğul olduqları bütün fəaliyyət sahələrinə elmi yanaşmanın tərəfdarı olublar. Onlar bir-biri ilə, eyni zamanda hər sahədə peşəkar mütəxəssislər ilə məsləhətləşib, hər zaman elmi əsaslansırmalara üstünlük vermişdilər. Bəlkə də, elə bu səbəbdəndir ki, bir çoc xarici neft şirkətləri və iş adamları bu sahədə müəyyən addımlar atsalar da, heç biri Nobellərin əldə etdiyi uğurlara nail ola bilməmişdilər. Xüsusi ilə iltizam sisteminin ləğvi ilə eyni vaxta təsadüf edən Robert Nobelin Bakıya gəlişi, Nobellərin öz fəaliyyətlərini neft sahəsinə yönəltməsi bu sahənin inkişafında müstəsna rol oynadı. Var-dövlət qazanmağın mənbəyini neftdə görən Robert Nobel burada yeni fəaliyyətə başlayır və müntəzəm olaraq qardaşları Alfred Nobel və Lüdviq Nobel ilə fikir mübadiləsi edir. Beləliklə, sonrakı proses Nobellərin Bakıda uzun müddətli fəaliyyətə qədəm qoyması ilə yekunlaşır.

## Ədəbiyyat

1. Həsənov M. Nobellər, neft, milyonçular və qoçular şəhərində. TEAS Press Nəşriyyat evi, Bakı, 2018, 168 s.
2. Hüseynova A, Abbasova N, Melikova A; Nobellər və Bakı nefti, Bakı, 2009, 188 s.
3. İsrafiloğlu. N.R; Odlu məmləkət. Mütərcim. Bakı, 2002, 208 s.
4. İsrafiloğlu. N.R; Neft, qlobal münaqişələr mənbəyi. Şərq-Qərb, Bakı, 2009, 464 s.
5. İsmayılov. İ. Azərbaycan nefti XX əsrdə (hərbi-siyasi baxış), Azərb. DNA-nın mətbəəsi. Bakı, 2007, 66 s.
6. Mehdiyev. Ə. Azərbaycan neft sənayesi XIX yüzilin son rübündə. Altay nəşriyyatı, Bakı, 2009,128 s.
7. Осбринк Б. Империя Нобелей-Текст, Москва, 2003, 280 s.

**Rəyçi: t.f.d.C.Bəhrəmov**

Göndərilib: 12.01.2021 Qəbul edilib: 13.01.2021